**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**Azərbaycan Respublikasının**
**Elm və Təhsil Nazirliyinin**
**3-25/3-2-548f/2025 nömrəli 08.05.2025-ci il**
**tarixli əmri ilə təsdiq edilmişdir.**

ƏSLİNƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

**İxtisasın şifri və adı: 7002001 – Beynəlxalq münasibətlər**

**BAKI – 2025**

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin **7002001 – Beynəlxalq münasibətlər** ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə

müvafiq müzakirələrdə iştirak etmək; o müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;

- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

2.2. Təhsil proqramının sonunda 7002001 – **Beynəlxalq münasibətlər ixtisasının ixtisaslaşmaları** üzrə məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

**"Müasir dövrdə Yaxın və Orta Şərq dövlətlərinin xarici siyasəti" ixtisaslaşmasının peşə səriştələri:**

- Yaxın və Orta Şərq ölkələrinin geosiyasi və geoiqtisadi maraqlarını təhlil etmək və bu maraqların regional və qlobal təhlükəsizlik mühitinə təsirini qiymətləndirmək;
- Din, məzhəb, enerji resursları, su ehtiyatları və digər strateji amillərin region dövlətlərinin xarici siyasət qərarlarında oynadığı rolu təhlil etmək;
- Əsas regional böhranları və münaqişələri siyasi-tarixi kontekstdə şərh etmək və diplomatik həll mexanizmləri irəli sürmək;
- Yaxın Şərqdə aparıcı aktorların xarici siyasət strategiyalarını müqayisəli şəkildə təhlil etmək;
- ABŞ, Rusiya, Çin və Aİ-nin regiondakı maraqlarını və strateji mövqelərini qiymətləndirmək, regional sabitlik və əməkdaşlıq üçün beynəlxalq vasitəçilik modellərini araşdırmaq;
- Regional beynəlxalq təşkilatların (Ərəb Dövlətləri Liqası, İƏT və s.) rolunu və effektivliyini təhlil etmək, həmçinin müasir Yaxın Şərq diplomatiyasında multilateralizm və güc balansı yanaşmalarını izah etmək.

**"Qlobal siyasət" ixtisaslaşmasının peşə səriştələri:**

- Qlobal miqyasda beynəlxalq münasibətləri formalaşdıran əsas nəzəri yanaşmaları (realizm, liberalizm, konstruktivizm və s.) və onların müasir tətbiqlərini izah etmək;
- Qlobal güc mərkəzlərinin xarici siyasət strategiyalarını müqayisəli şəkildə təhlil etmək və bu strategiyaların beynəlxalq sistemə təsirini qiymətləndirmək;
- İqlim dəyişikliyi, miqrasiya, pandemiyalar, texnoloji transformasiya və iqtisadi qeyri-bərabərlik kimi transsərhəd problemlərin beynəlxalq siyasətdə yaratdığı çağırışları təhlil etmək;
- BMT, ÜTT, G20, NATO, BRICS və digər qlobal təsisatların rolunu və praktik fəaliyyət effektivliyini təhlil etmək, onların beynəlxalq siyasi proseslərə təsirini qiymətləndirmək və bu çərçivədə siyasi tövsiyələr hazırlamaq;
- Beynəlxalq münasibətlərdə qloballaşma və suverenlik anlayışları arasında mövcud olan ziddiyyətləri təhlil etmək, yeni dünya düzənində formalaşan qüvvələr balanslarını şərh etmək;
- Qlobal gündəmin formalaşmasında beynəlxalq media, vətəndaş cəmiyyəti və texnoloji platformaların təsirini təhlil etmək, qlobal kommunikasiya mühitində informasiya təhlükəsizliyinə dair yanaşmaları mənimsəmək və fəaliyyət prosesində tətbiq etmək.

**"Diplomatik danışıqlar" ixtisaslaşmasının peşə səriştələri:**

- Ənənəvi və müasir diplomatik məktəbləri və danışıqlar nəzəriyyələrini mənimsəmək, müxtəlif siyasi kontekstlərdə onların tətbiqi imkanlarını təhlil etmək və qiymətləndirmək;
- Bilateral və multilateral danışıqlarda istifadə olunan əsas metod və taktikaları konkret situasiyalara uyğun tətbiq etmək;

- Protokol qaydaları, diplomatik yazışmalar və etiket normalarına uyğun davranış sərgiləmək və münaqişəyə həssas kontekstlərdə etik və peşəkar davranış nümayiş etdirmək;
- İxtilafların sülh yolu ilə tənzimlənməsi, sanksiyalar və təhlükəsizlik təminatları ilə bağlı mövqelərin danışıqlar masasında qurulmasını planlaşdırmaq və idarə etmək;
- Tərəfdaşlararası qüvvələr balansını, maraqların prioritetləşdirilməsini və qarşılıqlı güzəşt imkanlarını təhlil edərək, danışıqlar prosesində strateji qərarlar qəbul etmək;
- Simulyasiya və praktiki təlimlər vasitəsilə real diplomatik proseslərdə liderlik, kommunikasiya və strateji təmsilçilik bacarıqlarını nümayiş etdirmək.

**"Beynəlxalq təhlükəsizlik" ixtisaslaşmasının peşə səriştələri:**

- Ənənəvi və qeyri-ənənəvi təhlükəsizlik anlayışlarını sistemli şəkildə fərqləndirmək və onların regional və qlobal siyasətdə tətbiqini təhlil etmək;
- Beynəlxalq təhlükəsizlik arxitekturasında əsas rol oynayan təşkilatların (BMT Təhlükəsizlik Şurası, NATO, ATƏT və s.) strukturu, funksiyası və hüquqi mexanizmlərini təhlil etmək, onların qlobal və regional təhlükəsizliyə təsiri imkanlarını qiymətləndirmək;
- Regional münaqişələrin səbəblərini və transformasiyasını dəyərləndirmək, münaqişələrin qarşısının alınması və post-münaqişə mərhələlərinin idarə olunması siyasətinə dair tövsiyələr hazırlamaq;
- Terrorizm, kütləvi qırğın silahlarının yayılması, kibercinayətlər və transmilli təhlükələrə dair riskləri təhlil etmək və bu təhlükələrə qarşı qarşılıqlı fəaliyyət modellərini təklif etmək;
- Təhlükəsizlik strategiyalarında milli maraqların və beynəlxalq öhdəliklərin balanslaşdırılmasını şərh etmək və normativ-hüquqi çərçivəyə əsaslanan təhlillər aparmaq;
- Qlobal və regional təhlükəsizlik gündəmini formalaşdıran aktorların motivasiyalarını təhlil etmək, təhdidlərə dair qiymətləndirmələr aparmaq və ssenari əsaslı risk modelləri hazırlamaq.

**"Müasir dövrdə Uzaq Şərq dövlətlərinin xarici siyasəti" ixtisaslaşmasının peşə səriştələri:**

- Uzaq Şərq dövlətlərinin xarici siyasət strategiyalarını, tarixi formalaşma yollarını və müasir geosiyasi prioritetlərini təhlil etmək;
- Regionda iqtisadi gücün artması ilə paralel inkişaf edən diplomatik və təhlükəsizlik doktrinalarını müqayisəli şəkildə təhlil etmək və müvafiq siyasi nəticələr çıxarmaq;
- ABŞ, Rusiya və ASEAN kimi güclərin Uzaq Şərqə dair siyasətlərini, qarşılıqlı təsir və strateji rəqabət aspektlərini izah etmək və qiymətləndirmək;
- Regional münaqişələrin xarici siyasətə təsirini şərh etmək və bu məsələlərə dair analitik nəticələr çıxarmaq;
- Regiondaxili inteqrasiya təşəbbüslərini və onların beynəlxalq münasibətlər sistemindəki rolunu dəyərləndirmək;
- Uzaq Şərq diplomatiyasında mədəni amillərin, siyasi ənənələrin və liderlik modellərinin formalaşdırdığı xarici siyasət davranışlarını təhlil etmək .

**"Türk dövlətlərinin xarici siyasəti və inteqrasiya prosesləri" ixtisaslaşmasının peşə səriştələri:**

- Türk dövlətlərinin müasir xarici siyasət strategiyalarının və bu siyasətlərin milli maraqlar əsasında formalaşma dinamikasının təhlilini aparmaq və qiymətləndirmək;
- Türk Dövlətləri Təşkilatı və digər regional qurumlar çərçivəsində siyasi, iqtisadi və mədəni inteqrasiya proseslərini, məqsədləri və institusional mexanizmləri qiymətləndirmək;

- Türk dövlətləri arasında enerji, nəqliyyat, ticarət və təhlükəsizlik sahələrində əməkdaşlıq formatlarının müqayisəli təhlilini aparmaq və mövcud maneələri aşkar edərək inteqrasiya imkanlarını qiymətləndirmək;
- Geostrateji layihələrin Türk dünyası arasındakı əlaqələrə təsirini dəyərləndirmək və bu sahədə tövsiyələr hazırlamaq;
- Türk dövlətlərinin xarici siyasətində ortaq kimlik, tarixi miras, dil və mədəni dəyərlərin rolunu təhlil etmək və bu amillərin diplomatik münasibətlərə təsirini əsaslandırmaq;
- Qlobal və regional güclərin Türk dövlətlərinin inteqrasiyasına münasibətini təhlil etmək və bu münasibətlərin regional siyasətə təsirini dəyərləndirmək.

**"Beynəlxalq münasibətlər və diplomatiya" ixtisaslaşmasının peşə səriştələri:**

- Qlobal və regional beynəlxalq münasibətlər sistemində beynəlxalq aktorların davranışlarını təhlil etmək və mümkün fəaliyyətlərini proqnozlaşdırmaq;
- Diplomatik hüquq, beynəlxalq hüquq və beynəlxalq təşkilatların fəaliyyəti haqqında sistemli biliklər əldə etmək, rəsmi diplomatik yazışmalar hazırlamaq, diplomatik etika və protokol qaydalarına riayət etmək;
- BMT, NATO, Avropa Şurası və digər beynəlxalq təşkilatların hüquqi çərçivəsini dərindən anlamaq, müasir beynəlxalq siyasət, təhlükəsizlik və xarici siyasət anlayışları ilə işləmək.
- Qafqaz, Yaxın Şərq, Avropa, ABŞ və digər regionlarda beynəlxalq prosesləri təhlil etmək və qiymətləndirmək; • Xarici siyasət strategiyalarının layihəsinin hazırlanmasında iştirak etmək;
- Diplomatik danışıqları aparmaq, ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatlarını təşkil etmək, diplomatik yazışmaları hazırlamaq, protokol və kommunikasiya qaydalarına riayət etmək; • Beynəlxalq münasibətlərin tarixi və nəzəriyyələrinə dair müstəqil tədqiqat aparmaq;
- Diplomatik çeviklik və kompromisə getmək qabiliyyəti nümayiş etdirmək.

**"Geosiyasət" ixtisaslaşmasının peşə səriştələri:**

- Klassik və müasir geosiyasi nəzəri məktəblər üzrə elmi və metodoloji hazırlığa yiyələnmək, realizm, liberalizm, konstruktivizm və digər beynəlxalq münasibətlər nəzəriyyələrini geosiyasi təhlillərlə əlaqələndirmək, həmçinin qlobal və regional təhlükəsizlik mexanizmləri, münaqişə nəzəriyyələri və strateji qarşıdurmalar sahəsində sistemli biliklər nümayiş etdirmək;
- Dövlətlərarası münasibətlərdə risk və maraqların geosiyasi təhlilini həyata keçirmək, ssenari modelləri qurmaq, eləcə də GIS, xəritələr və statistik məlumatlar vasitəsilə məkan əsaslı təhiillər aparmaq;
- Multidissiplinar yanaşma çərçivəsində geosiyasi prosesləri iqtisadiyyat, enerji təhlükəsizliyi, ekoloji dəyişikliklər, demoqrafiya və texnologiya kimi sahələrlə inteqrativ şəkildə təhlil etmək, həmçinin hüquq, tarix, sosiologiya və antropologiya elmlərinin analitik üsullarını araşdırmalarına tətbiq etmək; • Tənqidi və analitik düşüncə qabiliyyəti kontekstində qlobal güc balansı, dövlət strategiyaları və regional dinamikaları obyektiv şəkildə qiymətləndirmək, mövcud siyasi narrativləri, ideoloji təsirləri və hegemon yanaşmaları tənqidi baxışla təhlil edərək onların arxasında duran məna və təsirləri aşkara çıxarmaq;
- Regional və qlobal kontekst üzrə dərin biliklərə yiyələnmək, konkret regionlar üzrə (Yaxın Şərq, Qafqaz, Avrasiya, Asiya-Sakit Okean və s.) ixtisaslaşma nümayiş etdirmək, eyni zamanda qlobal güc mərkəzləri arasındakı qarşılıqlı münasibətləri, qütbləşmə və çoxqütblülük meyillərini təhlil etmək;
- Tətbiqi və peşəkar fəaliyyət istiqamətində dövlət siyasətinin hazırlanması və qiymətləndirilməsi üzrə təhlil aparmaq, geopolitik inkişaflara dair proqnozlar verərək alternativ ssenarilər

hazırlamaq, tədqiqat layihələrində komanda şəklində işləmək və liderlik bacarığını nümayiş etdirmək.

**"Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi" ixtisaslaşmasının peşə səriştələri:**

- Beynəlxalq siyasətin əsas tendensiyalarını, aktorlarını və siyasi proseslərini təhlil etmək və onların beynəlxalq münasibətlər sisteminə təsirini qiymətləndirmək;
- Beynəlxalq münasibətlərdə rəsmi sənədləri hazırlamaq, diplomatik yazışmalar aparmaq və ünsiyyət formalarını düzgün şəkildə tətbiq etmək;
- Beynəlxalq hüququn, xüsusən də insan hüquqları, müharibə hüququ və dövlətlərarası müqavilələr barədə biliklərə yiyələnmək və onların tətbiqi ilə bağlı təhlil və qiymətləndirmə aparmaq ;
- Beynəlxalq iqtisadiyyat, ətraf mühitin qorunması, humanitar məsələlər və digər qlobal məsələlərə dair dərin biliklərə yiyələnmək, bu sahələrdə baş verən proseslərlə bağlı təkliflər irəli sürmək;
- Beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, layihələrin idarə olunması və həmin qurumların təşkilati strukturlarını dərk etmək;
- Beynəlxalq münasibətlər sahəsində aparılan araşdırmaları, statistik məlumatları və digər mənbələri təhlil edərək nəticələr çıxarmaq.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| 1. Müasir dövrdə Yaxın və Orta Şərq dövlətlərinin xarici siyasəti 2. Qlobal siyasət<br>3. Diplomatik danışıqlar<br>4. Beynəlxalq təhlükəsizlik<br>5. Müasir dövrdə Uzaq Şərq dövlətlərinin xarici siyasəti<br>6. Türk dövlətlərinin xarici siyasəti və inteqrasiya prosesləri<br>7. Beynəlxalq münasibətlər və diplomatiya<br>8. Geosiyasət<br>9. Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi | Magistr ali elmi-ixtisas | 2 il | 120 |

3.2. Təhsil proqramı 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Tədqiqat metodları**<br>*Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur.* | 6 |
| 2 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər* | 6 |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- Beynəlxalq münasibətlər, beynəlxalq hüquq, diplomatiya və qlobal siyasət üzrə mühazirə və seminarların keçirilməsi üçün müasir avadanlıqla təchiz olunmuş auditoriyalar;
- Beynəlxalq əlaqələr və siyasi analiz sahəsində təhlil aparmaq üçün yüksək performanslı kompüter otaqları və müvafiq proqram təminatı (NVivo, MAXQDA, Excel, Atlas.ti və s.);
- Siyasi simulyasiya və diplomatik modelləşdirmə üzrə proqramlar və avadanlıqlar;
- Beynəlxalq münasibətlər, diplomatiya, beynəlxalq hüquq və siyasi elmlər üzrə ixtisaslaşmış çap və elektron kitabxana fondları;
- Elmi jurnal və akademik nəşrlərə (JSTOR, Springer, Taylor & Francis, Scopus, Wiley və s.) onlayn çıxış imkanı;
- Diplomatik təcrübə və simulasiya otaqları – danışıqlar, debat və beynəlxalq forum simulyasiyaları üçün;
- Beynəlxalq təşkilatlar və xarici diplomatik nümayəndəliklərlə əməkdaşlıq əlaqələri;
- Təcrübə keçmə bazaları və xarici təcrübə proqramlarına çıxış imkanları (MFA, BMT qurumları, səfirliklər və beynəlxalq QHT-lər);
- Elektron qiymətləndirmə və portfoliolarla təlim nəticələrinin izlənməsi sistemləri;
- Beynəlxalq hüquq və xarici siyasət üzrə tədqiqat layihələrinin aparılması üçün resurslar və platformalar;
- Multikultural mühit və xarici dil bacarıqlarının inkişafı üçün multimedia və tədris imkanları; • Etik davranış, qlobal və regional təhlükəsizlik, diplomatik etiket və beynəlxalq protokol üzrə təlimlər və seminarlar üçün şərait.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

---

edilən zaman əmək bazarının təklifləri də nəzərə alınır və bu məqsədlə ali təhsil müəssisələri və əmək bazarı nümayəndələrindən ibarət işçi qrupunun yaradılması tövsiyə olunur. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər təhsilalanlar üçün seçmə xarakter daşımalı, eləcə də təhsilalanların xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır. Bu bölmədə minimum 3 fənn olmalıdır.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

*6.1.* **7002001 – Beynəlxalq münasibətlər ixtisasının ixtisaslaşmaları** *üzrə məzunlar aşağıdakı sahələrdə və peşələrdə işləmək imkanı əldə edirlər:*

***1. Diplomatik və xarici siyasət institutları***

- Diplomatik nümayəndəlik əməkdaşı
- Xarici siyasət üzrə məsləhətçi
- Siyasi təhlilçi
- Beynəlxalq münasibətlər üzrə protokol müşaviri

***2. Beynəlxalq təşkilatlar və regional əməkdaşlıq formatları***

BMT, ATƏT, Avropa Şurası, UNESCO, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq qurumlarda layihə meneceri, regional proqram koordinatoru, insan hüquqları üzrə ekspert və ya inkişaf siyasəti üzrə mütəxəssis kimi çalışa bilərlər.

***3. Tədqiqat və analitika sahəsi***

Akademik və strateji-tədqiqat institutlarında fəaliyyət göstərərək beynəlxalq münasibətlər, təhlükəsizlik, regionşünaslıq, geosiyasət və münaqişə həllinə dair sahələrdə təhlilçi, tədqiqatçı və ya analitik kimi çıxış edə bilərlər.

***4. Qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti institutları***

Bu sahədə fəaliyyət göstərən mütəxəssislər siyasi monitorinq, vətəndaş diplomatiyası, insan hüquqları və konfliktoloji istiqamətlərdə ekspert və ya analitik kimi ixtisaslaşa bilərlər.

***5. Ali təhsil və elmi tədqiqat***

Ali təhsil müəssisələrində müəllim və ya doktorantura pilləsində tədqiqatçı kimi fəaliyyətə davam edirlər.

***6. Media və informasiya siyasəti sahəsi***

media analitikası, ictimai diplomatiya, strateji kommunikasiya və informasiya təhlükəsizliyi sahələrində də media analitikası, ictimai diplomatiya, strateji kommunikasiya, informasiya təhlükəsizliyi, dövlət informasiya siyasəti üzrə ekspert, beynəlxalq media əlaqələri üzrə müşavir kimi fəaliyyət göstərə bilərlər.

***7. Özəl sektor və korporativ diplomatiya***

Məzunların bir hissəsi beynəlxalq biznes, enerji təhlükəsizliyi, nəqliyyat və logistika, korporativ sosial məsuliyyət sahələrində mütəxəssis kimi fəaliyyət göstərə bilərlər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**

| Təhsil Proqramının təlim nəticələri (PTN)<br>"Müasir dövrdə Yaxın və Orta Şərq dövlətlərinin xarici siyasəti" ixtisaslaşması üzrə |
|---|
| PTN 1. Yaxın və Orta Şərqdə dövlətlərarası münasibətlərin tarixi və geosiyasi kontekstini analiz edə bilir. bu regionun formalaşmasında rol oynayan əsas siyasi hadisələri və tarixi prosesləri qiymətləndirə bilirlər. Regionun müasir geosiyasi xəritəsini anlamaqla beynəlxalq münasibətlərin spesifik konfiqurasiyasını izah edə bilirlər. |
| PTN 2. Regional aktorların xarici siyasət prioritetlərini və təhlükəsizlik doktrinalarını təhlil edə bilir. Magistrantlar Yaxın Şərq ölkələrinin beynəlxalq siyasətdə hansı strateji maraqlarla hərəkət etdiyini dəyərləndirirlər. Onlar bu siyasətlərin regional sabitlik və qlobal güc balansına təsirlərini müəyyən edə bilirlər. |
| PTN 3. Orta Şərqdə baş verən siyasi böhranlar və münaqişələrə dair analitik yanaşma sərgiləyir, regiondakı vətəndaş müharibələri, dini və etnik qarşıdurmaların köklərini araşdıra bilirlər. Onlar münaqişələrin həllinə dair sülh təşəbbüslərini və diplomatik vasitəçilik imkanlarını qiymətləndirirlər. |
| PTN 4. Regional təşkilatlar və qlobal güclərin Orta Şərqdəki rolunu dəyərləndirə bilir. Bu kontekstdə ABŞ, Rusiya, Çin, Avropa İttifaqı kimi beynəlxalq güclərin regiona təsiri izah olunur. Həmçinin Ərəb Liqası, OPEC və digər təşkilatların siyasi rolu və fəaliyyəti öyrənilir. |
| PTN 5 Diplomatik sənədlərlə işləmək və Orta Şərq ölkələrinin beynəlxalq hüquq normalarına münasibətini izah etmək bacarığına malikdir. Magistrantlar ikitərəfli və çoxtərəfli müqavilələrin məzmununu şərh edə bilirlər. Region ölkələrinin BMT sənədlərinə və beynəlxalq hüquq prinsiplərinə münasibətini təhlil edirlər. |
| PTN 6. Yaxın və Orta Şərq regionu üzrə strateji analizlər apararaq proqnozlar irəli sürə bilir. Bu sahədə tələbələr beynəlxalq münasibətlərin gələcək inkişaf trayektoriyalarını müəyyənləşdirirlər. Geosiyasi risklərin və imkanların qiymətləndirilməsi bacarıqları formalaşır. |

| Təhsil Proqramının təlim nəticələri (PTN)<br>"Qlobal siyasət" ixtisaslaşması üzrə |
|---|
| PTN 1. Müasir beynəlxalq münasibətlərin əsas nəzəri məktəblərini və konseptual yanaşmalarını mənimsəyir. Realizm, liberalizm, konstruktivizm kimi nəzəri çərçivələr əsasında beynəlxalq münasibətlərin təhlilini aparır. Bu yanaşmaların tətbiqi ilə beynəlxalq aktorların davranışı izah olunur. |
| PTN 2. Qlobal aktorların siyasətini və onların beynəlxalq qərarvermədəki rolunu analiz edə bilir. Tələbələr qlobal güclərin strateji maraqlarını və prioritetlərini qiymətləndirə bilirlər. Bu aktorların BMT, NATO, G20 kimi platformalarda iştirakını və təsirini araşdıra bilirlər. |
| PTN 3. Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq institutların fəaliyyətini qiymətləndirə bilir. Magistrantlar bu təşkilatların strukturunu, mandatlarını və qərar qəbuletmə mexanizmlərini təhlil edirlər. Onlar təşkilatların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf sahəsindəki effektivliyini dəyərləndirə bilirlər. |

| |
|---|
| PTN 4. Qlobal problemlərin – iqlim dəyişikliyi, terrorizm, miqrasiya və s. – siyasi aspektlərini təhlil edə bilir. Bu problemlərin beynəlxalq münasibətlərə təsiri və dövlətlərin bu sahədəki siyasətləri təhlil olunur. Tələbələr beynəlxalq əməkdaşlıq imkanlarını və mövcud maneələri araşdırırlar. |
| PTN 5. Regional inteqrasiya prosesləri və transmilli təşkilatların təsirini qiymətləndirir. Avropa İttifaqı, ASEAN, MERCOSUR kimi regional birliklərin qlobal sistemdəki rolu izah edilir. Magistrantlar bu inteqrasiyaların daxili və beynəlxalq siyasətə təsirini analiz edirlər. |
| PTN 6. Qlobal siyasətdə yeni çağırışlar və tendensiyalar haqqında tədqiqatlar aparmaq bacarığına malik olur. Bu sahədə tələbələr rəqəmsal diplomatiya, kibertəhlükəsizlik, süni intellektin geosiyasətə təsiri kimi mövzuları araşdırırlar. Yeni siyasi texnologiyalar və qlobal idarəçilik formaları öyrənilir. |

| **Təhsil Proqramının təlim nəticələri (PTN) "Diplomatik danışıqlar" ixtisaslaşması üzrə** |
|---|
| **PTN 1.** Diplomatik danışıqların əsas prinsiplərini və mərhələlərini mənimsəyir. Tələbələr real və simulyasiya olunmuş danışıqlarda iştirak etməklə praktiki bacarıqlar qazanırlar. Münaqişələrin dinc yolla həllində effektiv kommunikasiya və vasitəçilik bacarıqları formalaşır. |
| **PTN 2.** Beynəlxalq hüquq və protokol qaydaları çərçivəsində danışıqların aparılması metodologiyasını öyrənir. Bu sahədə magistrantlar müqavilə hüququ, diplomatik münasibətlər haqqında Vyana Konvensiyası və digər normativ sənədləri tətbiq edə bilirlər. Protokol qaydalarına riayət etməklə peşəkar yanaşma nümayiş etdirirlər. |
| **PTN 3.** Diplomatik yazışmalar, notalar və memorandumların hazırlanması bacarığına malik olur. Rəsmi ünsiyyətin struktur və dil xüsusiyyətlərini mənimsəməklə, beynəlxalq yazışma texnikalarını tətbiq edə bilirlər. Diplomatik sənədlərin analizi və hazırlanmasında məntiqi və hüquqi əsaslandırmalar verir. |
| **PTN 4.** Çoxtərəfli diplomatiya və beynəlxalq təşkilatlarda danışıqların aparılması strategiyalarını öyrənir. BMT, ATƏT, İKT və digər qurumlar çərçivəsində danışıqlar proseslərini və nümayəndəlik fəaliyyətini təhlil edə bilir. Tələbələr bu təşkilatlarda iştirak üçün zəruri olan müzakirə və təqdimat bacarıqlarını inkişaf etdirirlər. |
| **PTN 5.** Müasir informasiya texnologiyalarından istifadə etməklə rəqəmsal diplomatiyanı həyata keçirmək bacarığına malik olur. Sosial media, diplomatik platformalar və rəqəmsal vasitələrlə beynəlxalq ünsiyyət formalarını öyrənirlər. Tələbələr bu texnologiyaların diplomatiyadakı rolu və təsirini dəyərləndirirlər. |
| **PTN 6.** Qlobal və regional münaqişələrin diplomatik həll yollarını analiz edə bilir. Magistrantlar real dünya təcrübəsindən nümunələr əsasında diplomatik yanaşmaları müqayisə edirlər. Barışıq, vasitəçilik və danışıqlar vasitəsilə beynəlxalq böhranların həllində strategiyalar formalaşdırırlar. |

| **Təhsil Proqramının təlim nəticələri (PTN) "Beynəlxalq təhlükəsizlik" ixtisaslaşması üzrə** |
|---|
| **PTN 1.** Müasir beynəlxalq təhlükəsizlik anlayışlarını və konseptual yanaşmaları mənimsəyir. Tələbələr ənənəvi və qeyri-ənənəvi təhlükələr arasında fərqi anlamağı bacarırlar. Onlar milli və qlobal təhlükəsizlik gündəminin formalaşmasına dair analitik təhlil aparırlar. |

| |
|---|
| **PTN 2.** Strateji sabitlik, silahsızlanma və silahların yayılmaması üzrə siyasətləri analiz edə bilir. Bu sahədə BMT qətnamələri, beynəlxalq razılaşmalar və konvensiyalar üzrə biliklərə yiyələnirlər. Magistrantlar nüvə təhlükəsizliyi, bioloji və kimyəvi silahların yayılmasının qarşısının alınması üzrə mövcud mexanizmləri təhlil edirlər. |
| **PTN 3.** Münaqişələrin qarşısının alınması və idarə olunması strategiyalarını öyrənir. Onlar erkən xəbərdarlıq sistemləri, münaqişə diplomatiyası və sülh quruculuğu mexanizmlərini tətbiq edə bilirlər. Regional və beynəlxalq sülhməramlı missiyaların fəaliyyəti təhlil olunur. |
| **PTN 4.** Kiber təhlükəsizlik, informasiya müharibələri və texnoloji çağırışlar kontekstində təhlükəsizlik məsələlərini analiz edir. Süni intellekt, kiber hücumlar və rəqəmsal platformalarda təhdidlərə dair risk analizi aparır. Tələbələr dövlətlərin bu sahədəki siyasətini qiymətləndirirlər. |
| **PTN 5.** Enerji təhlükəsizliyi və təchizat zəncirindəki strateji maraqları təhlil edir. Xüsusilə regionlararası enerji dəhlizlərinin siyasi aspektlərini analiz edir və resurslara çıxışın geosiyasi nəticələrini qiymətləndirir. Bu sahədə dövlətlərarası əməkdaşlıq və rəqabət formatlarını dəyərləndirirlər. |
| **PTN 6.** Terrorizmlə mübarizə və transmilli təhlükələrə qarşı beynəlxalq səyləri qiymətləndirə bilir. Tələbələr beynəlxalq hüquq, insan hüquqları və təhlükəsizlik tədbirləri arasındakı balansı anlayırlar. Əməkdaşlıq mexanizmləri və qarşılıqlı təhlükəsizlik öhdəlikləri sahəsində analitik biliklər əldə edirlər. |

| **Təhsil Proqramının təlim nəticələri (PTN)**<br>**“Müasir dövrdə Uzaq Şərq dövlətlərinin xarici siyasəti” ixtisaslaşması üzrə** |
|---|
| **PTN 1.** Çin, Yaponiya, Koreya və digər əsas Uzaq Şərq dövlətlərinin xarici siyasət doktrinalarını öyrənir. Tələbələr bu ölkələrin regional və qlobal siyasətdəki maraqlarını təhlil edirlər. Siyasi və iqtisadi güc balansını analiz edərək dövlətlərarası münasibətləri izah edirlər. |
| **PTN 2.** Uzaq Şərqdə regional əməkdaşlıq formatları və inteqrasiya təşəbbüslərini təhlil edir. ASEAN, APEC və digər təşkilatların fəaliyyətini və regionda sabitlik üçün rolunu dəyərləndirir. Tələbələr bu inteqrasiyaların xarici siyasətə təsirini müəyyən edirlər. |
| **PTN 3.** Uzaq Şərq dövlətlərinin BMT və digər beynəlxalq təşkilatlarla münasibətlərini araşdırır. Onların çoxtərəfli diplomatiyada oynadığı rol və təşəbbüslər qiymətləndirilir. Magistrantlar bu fəaliyyətləri siyasi prioritetlər kontekstində təhlil edirlər. |
| **PTN 4.** Regional münaqişələr və təhlükəsizlik çağırışlarını dəyərləndirə bilir. Tələbələr Şimali Koreya nüvə problemi, Çin-Tayvan münasibətləri və Cənubi Çin dənizindəki gərginlikləri analiz edirlər. Onlar bu kontekstlərdə diplomatik həll yollarını və regional balansları nəzərdən keçirirlər. |
| **PTN 5.** Uzaq Şərq ölkələrinin iqtisadi diplomatiyasını və beynəlxalq ticarət strategiyalarını təhlil edir. Bu ölkələrin qlobal bazarda oynadığı rol və iqtisadi maraqları qiymətləndirilir. Tələbələr iqtisadi diplomatiya vasitələri və investisiya siyasətləri haqqında bilik əldə edirlər. |
| **PTN 6.** Regionun mədəniyyətlərarası kommunikasiyası və soft power siyasətlərini qiymətləndirir. Mədəni diplomatiya vasitəsilə ölkələrin beynəlxalq imic formalaşdırmasına dair təhlillər aparılır. Magistrantlar bu siyasətlərin xarici siyasət aləti kimi rolunu izah edirlər. |

| **Təhsil Proqramının təlim nəticələri (PTN)**<br>**“Türk dövlətlərinin xarici siyasəti və inteqrasiya prosesləri” ixtisaslaşması üzrə** |
|---|

| |
|---|
| **PTN 1.** Türk dövlətlərinin xarici siyasət konsepsiyalarını və strateji yanaşmalarını təhlil edir. Bu dövlətlərin regional və beynəlxalq siyasətdəki rolu izah olunur. Tələbələr türk dövlətlərinin prioritetlərini və əməkdaşlıq strategiyalarını öyrənirlər |
| **PTN 2.** Türk dövlətləri arasında siyasi, iqtisadi və mədəni inteqrasiya təşəbbüslərini qiymətləndirir. Türk Dövlətləri Təşkilatı, TÜRKSOY kimi strukturların fəaliyyətini təhlil edirlər. Magistrantlar bu təşkilatların regional inteqrasiyaya verdiyi töhfəni müəyyənləşdirirlər. |
| **PTN 3.** Türk dövlətlərinin regional və qlobal təşkilatlarla münasibətlərini analiz edir. Onların BMT, İƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlarla əməkdaşlıq formatları qiymətləndirilir. Bu dövlətlərin çoxşaxəli xarici siyasət yürütmə potensialı izah olunur. |
| **PTN 4.** Ortaq tarix, dil və mədəniyyət əsasında həyata keçirilən yumşaq güc (soft power) siyasətlərini öyrənir. Tələbələr ortaq dəyərlər və tarixdən irəli gələn diplomatik imkanları təhlil edirlər. Mədəni və humanitar əməkdaşlığın xarici siyasətə təsiri izah olunur. |
| **PTN 5.** Türk dövlətlərinin təhlükəsizlik siyasətlərində əməkdaşlıq imkanlarını təhlil edir. Xüsusilə regional sabitlik, terrorizmlə mübarizə və müdafiə məsələləri üzrə əməkdaşlıq formatları öyrənilir. Magistrantlar birgə təhlükəsizlik mexanizmlərini və strateji tərəfdaşlıqları dəyərləndirirlər. |
| **PTN 6.** Türk dövlətlərinin enerji, nəqliyyat və kommunikasiya sahələrində strateji əməkdaşlıq layihələrini təhlil edir. Orta Dəhliz, enerji kəmərləri və rəqəmsal infrastrukturlar üzrə layihələr analiz olunur. Bu əməkdaşlıqların regionun inkişafına və qlobal əlaqələrə təsiri qiymətləndirilir. |

| **Təhsil Proqramının təlim nəticələri (PTN)**<br>**"Beynəlxalq münasibətlər və diplomatiya" ixtisaslaşması üzrə** |
|---|
| **PTN 1.** Beynəlxalq münasibətlər və diplomatiya sahəsində mövcud nəzəriyyə və yanaşmaları dərindən mənimsəyir və tənqidi şəkildə təhlil edə bilir. |
| **PTN 2.** Qlobal və regional beynəlxalq sistemlərin transformasiyası və aktorlararası münasibətləri elmi əsaslarla izah edir. Qlobal və regional siyasi sistemlərin quruluşunu, dövlətlərarası münasibətlərin inkişaf qanunauyğunluqlarını və beynəlxalq təşkilatların fəaliyyət mexanizmlərini anlayır. |
| **PTN 3.** Müasir beynəlxalq problemləri (münaqişələr, təhlükəsizlik, enerji, ətraf mühit və s.) strateji yanaşma ilə analiz edir. Diplomatik fəaliyyətin prinsipləri və etikası haqqında dərin biliklərə yiyələnir, müasir diplomatik protokolları və təcrübələri tətbiq edə bilir. |
| **PTN 4.** İnformasiya toplamaq, təhlil etmək və beynəlxalq hadisələri şərh etmək qabiliyyətini inkişaf etdirir; analitik hesabat və təqdimatlar hazırlayır. Müstəqil və orijinal elmi-tədqiqat işi aparmaq, hipotez qurmaq, məlumatları toplamaq və analiz etmək qabiliyyətinə malikdir |
| **PTN 5.** Danışıqların aparılması, vasitəçilik, rəsmi protokol və beynəlxalq tədbirlərin təşkili üzrə yüksək səviyyəli bacarıqlara malikdir, diplomatik yazışmalar və analitik hesabatların hazırlanmasını peşəkar şəkildə həyata keçirə bilir |
| **PTN 6.** Etik prinsiplər əsasında müasir metodologiyalardan istifadə edir, elmi tədqiqat layihələri hazırlayır, tədqiqat nəticələrini şərh və təqdim edir. Elmi və publisistik mətnlər hazırlamaq, akademik yazı üslubuna uyğun dissertasiya, məqalə və hesabatlar yazmaq, elmi təqdimatlar etməyi bacarır. |

| **Təhsil Proqramının təlim nəticələri (PTN)**<br>**"Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi" ixtisaslaşması üzrə** |
|---|

| |
|---|
| **PTN 1.** Beynəlxalq münasibətlər nəzəriyyələrini müqayisə edir, onların oxşar və fərqli cəhətlərini təhlil edir. |
| **PTN 2.** Qlobal və regional səviyyədə baş vermiş əsas beynəlxalq hadisələri (müharibələr, sülh müqavilələri, ittifaqlar və s.) qiymətləndirir və onların beynəlxalq münasibətlər sisteminə təsirini izah edir. |
| **PTN 3.** Müxtəlif mənbələrdən əldə olunan məlumatlar əsasında beynəlxalq hadisələri təhlil edir, tarixi kontekstə əsaslanaraq əsaslandırılmış nəticələr çıxarır. |
| **PTN 4.** Müasir beynəlxalq münasibətlərdə dövlətlərin, beynəlxalq təşkilatların və qeyri-dövlət aktorlarının rolunu dəyərləndirir və tarixi inkişaf prosesləri ilə əlaqələndirir. |
| **PTN 5.** Müxtəlif beynəlxalq münaqişə modellərini izah edir, nəzəri yanaşmalar əsasında onların həll mexanizmlərini müqayisə edir. |
| **PTN 6.** Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi üzrə elmi tədqiqat aparır, nəticələri sistemləşdirir və elmi müzakirələrdə təqdim edir. |
| **Təhsil proqramının təlim nəticələri (PTN)**<br>**"Geosiyasət" ixtisaslaşması üzrə** |
| PTN 1 Müxtəlif geosiyasi nəzəriyyələri müqayisə edir, onların müasir dövrdə tətbiqini təhlil edir. |
| PTN 2 Qlobal və regional güc mərkəzlərinin formalaşmasını və qarşılıqlı münasibətlərini qiymətləndirir, tarixi və müasir kontekstlə izah edir. |
| PTN 3 Dövlətlərin xarici siyasət strategiyalarında geosiyasi amillərin rolunu dəyərləndirir və müxtəlif nümunələri təhlil edir. |
| PTN 4 Enerji resursları, nəqliyyat dəhlizləri və kommunikasiya xətləri üzərində geosiyasi rəqabəti araşdırır və onların beynəlxalq münasibətlərə təsirini izah edir. |
| PTN 5 Müxtəlif regionlarda baş verən geosiyasi prosesləri təhlil edir, mümkün inkişaf ssenarilərini proqnozlaşdırır. |
| PTN 6 Geosiyasət üzrə elmi tədqiqat aparır, əldə etdiyi nəticələri sistemləşdirir və elmi diskussiyalarda təqdim edir. |

| **"Tədqiqat metodları" fənn üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| **FTN 2.** Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| **FTN 3.** Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| **FTN 4.** Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |

| |
|---|
| **FTN 5.** Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| **FTN 6.** Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq edə biləcək. |
| **"Akademik yazı və etika" fənn üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| **FTN 2.** Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| **FTN 3.** Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| **FTN 4.** Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |

| |
|---|
| **FTN 5.** Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| **FTN 6.** Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |
| **"Tədqiqat analitikası" fənn üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. |
| **FTN 2.** Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |
| **FTN 3.** Fərqli proqram təminatlarında ("Excel", "EViews", "SPSS", "Python", "R", "Matlab" və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| **FTN 4.** Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| **FTN 5.** Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |
| **FTN 6.** Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək. |
| **"Elmi-pedaqoji təcrübə" üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| **FTN 2.** Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| **FTN 3.** Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |

| |
|---|
| **FTN 4.** Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |
| **FTN 5.** Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| **FTN 6.** Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |
| **"Elmi-tədqiqat təcrübəsi" üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** İxtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd və vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq. |
| **FTN 2.** Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi, əməliyyat-taktiki təhlil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək. |
| **FTN 3.** Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizinin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək. |
| **FTN 4.** Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq. |
| **FTN 5.** Tədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək. |
| **FTN 6.** Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək. |
| **"Magistrlik dissertasiyası" üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək. |
| **FTN 2.** İxtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi və operativ qərarların qəbulunda müasir elmi yanaşmaları tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək. |
| **FTN 3.** Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə səriştə qazanacaq. |
| **FTN 4.** Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktik tövsiyələr hazırlamaq və innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək. |
| **FTN 5.** Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək bacarığına yiyələnəcək. |
| **FTN 6.** Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fəaliyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək. |

**Əlavə 2**

**Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi**

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisaslaşmanın təhsil proqramının təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini müəyyənləşdirməlidir.

| **Tədris fəaliyyətinin (fənnin) adı** | **Proqramın təlim nəticələri** | | | | | |
|---|---|---|---|---|---|---|
| | **PTN 1** | **PTN 2** | **PTN 3** | **PTN 4** | **PTN 5** | **PTN 6** |
| Tədqiqat metodları | | | | | | |
| Akademik yazı və etika | | | | | | |
| Tədqiqat analitikası | | | | | | |
| Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər | | | | | | |
| Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Elmi-pedaqoji təcrübə | | | | | | |
| Elmi tədqiqat təcrübəsi | | | | | | |
| Magistrlik dissertasiyası | | | | | | |

**Razılaşdırıldı:**

**Elm, ali və peşə təhsili şöbəsinin müdiri**

**Turxan Süleyman**

**Humanitar və sosial ixtisasları qrupu üzrə İşçi qrupunun həmsədrləri**

**Urxan Ələkbərov**

**Anar Bağırov**